**MƏTBUAT ÜÇÜN MƏLUMAT**

# Azərbaycan Hökuməti, Avropa İttifaqı və Dünya Bankı Azərbaycan üçün Çevik Texniki Yardım Alətinin icrasını nəzərdən keçirmişlər

**Bakı, 29 mart 2023 –** Bu gün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Avropa İttifaqı (Aİ) və Dünya Bankı (DB) hökumət, inkişaf təşkilatları, vətəndaş cəmiyyəti, elm müəssisələri və medianı təmsil edən tərəfdaş və həmkarlarla birlikdə Azərbaycan Çevik Texniki Yardım Alətinin (AZTAF) icrasını nəzərdən keçirmək məqsədilə toplantı keçirmişlər. AZTAF Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və Dünya Bankı tərəfindən idarə olunan ümumi büdcəsi 5,25 milyon avro olan üç illik proqramdır. Onun məqsədi Azərbaycanın 2030-cu ilədək Milli Prioritetlərinə uyğun olaraq Azərbaycan Hökumətinə sosial inklüzivliyi və bağlantıları genişləndirməyə, iqtisadi islahatlara təkan verməyə, dövlət sektorunun idarəçiliyini gücləndirməyə və COVID-19-dan sonra effektiv iqtisadi bərpaya nail olmağa kömək etmək üçün analitik dəstək və potensialın yaradılmasını təmin edtməkdir.

AZTAF proqramı Aİ-nin dörd Tərəfdaşlıq Prioritetinə – i) institutların gücləndirilməsi və yaxşı dövlət idarəçiliyi, ii) iqtisadi inkişaf və bazar imkanları, iii) rəqəmsal bağlantılar, enerji səmərəliliyi, ətraf mühit və iqlimlə bağlı tədbirlər, iv) mobillik və insanlararası təmaslara - uyğun olaraq, silsilə proqrammatik və ünvanlı texniki yardım fəaliyyətlərini əhatə edir.

"*Avropa İttifaqı Azərbaycanın sosial-iqtisadi inkişafının dəstəklənməsi yolunda sadiq tərəfdaşdır*", - **Avropa İttifaqının Azərbaycandakı Səfiri Peter Mixalko bildirib**. "*Bu tərəfdaşlıq vasitəsilə biz Dünya Bankı və hökumətdən olan tərəfdaşlarımızla birlikdə fəaliyyətimizi ədalətli, inklüziv və davamlı inkişaf üçün mühüm olan strateji sahələrə yönəldirik. Bu gün bütün bu sektorlar üzrə ciddi nailiyyətin əldə olunduğu barədə məlumat verildi. Növbəti illərdə Avropa səriştəsini və qabaqcıl beynəlxalq təcrübələri bölüşərək, son nəticədə isə Aİ ilə Azərbaycan arasında olan tərəfdaşlığın gücləndirilməsinə töhfə verərək, birgə işimizi davam edəcəyik*".

AZTAF inklüziv inkişaf, dövlət və korporativ idarəetmə, yaşıl ətraf mühit və davamlı inkişaf, insan kapitalının inkişafı və sosial inklüzivlik kimi sahələrdə Dünya Bankı Qrupunun davamlı və uzunmüddətli fəaliyyətinə əsaslanan doqquz texniki yardım fəaliyyətinə malikdir.

"*Dünya Bankı Qrupu hazırda ölkənin strateji məqsəd və prioritetlərinə, və Azərbaycan 2030 baxışına uyğunlaşdırılacaq Azərbaycan üçün yeni Ölkə Tərəfdaşlıq Çərçivəsini hazırlamağa başlayır. Biz gözləyirik ki, AZTAF-ın uğurla həyata keçirilməsi təkcə əhali üçün dərhal fayda verməyəcək, həm də ölkə proqramımıza daxil ediləcək yeni layihə və təşəbbüslər üçün möhkəm analitik baza və innovasiya mənbəyi yaratmağa kömək edəcək*", - **deyə Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Sara Maykl bildirib**.

Bu toplantı AZTAF proqramının icrasını və təsirini müzakirə etmək, hər bir fəaliyyətin təfərrüatları ilə bağlı maraqlı tərəflər və daha geniş ictimaiyyətə məlumat vermək üçün ictimai tədbirlər silsiləsində birincisidir və ölkədə həyata keçirilən digər təşəbbüslərlə güclü sinerji və qarşılıqlı öyrənməni təmin edəcək.

"Avropa İttifaqı öz nou-haularını, resurslarını və müqəddəratlarını tədricən birləşdirməyə qərar verən 27 Üzv Ölkədən ibarətdir. Onlar birlikdə 60 ildən artıq genişlənmə dövründə mədəni müxtəlifliyi, tolerantlığı və şəxsi azadlıqları qoruyub saxlamaqla sabitlik, demokratiya və davamlı inkişaf zonası qurmuşlar. Avropa İttifaqı öz nailiyyətlərini və dəyərlərini onun hüdudlarından kənarda olan ölkələr və xalqlarla bölüşməyə sadiqdir".

189 üzv ölkəsi və 130-dan çox ölkədə ofisləri olan Dünya Bankı inkişaf etməkdə olan ölkələrdə yoxsulluğun azaldılması və ümumi rifahın qurulması üçün çalışan unikal qlobal tərəfdaşlıqdır. 2022-ci ildə Azərbaycanın Dünya Bankına üzvlüyünün 30 ili tamam olmuşdur. 1992-ci ildən Dünya Bankı ölkədə insan kapitalının gücləndirilməsi, infrastruktur, ictimai xidmətlər və iş yerlərinə əlçatanlığın

yaxşılaşdırılması, kənd təsərrüfatının rəqabət qabiliyyəti və kənd yerlərinin inkişafına investisiyaların yatırılması və məcburi köçkünlərin iqtisadi imkanlarının dəstəklənməsi də daxil olmaqla bir çox milli inkişaf prioritetlərini əhatə edən, ümumi öhdəlikləri 4,4 milyard dollar olan 50-dən çox layihəni maliyyələşdirmişdir.

**Mətbuat üçün əlaqə:**

Dünya Bankının Azərbaycandakı Ofisinin xarici əlaqələr üzrə müşaviri Zaur Rzayev (zrzayev@worldbank.org)

Avropa İttifaqının Azərbaycan Nümayəndəliyinin mətbuat və informasiya üzrə mütəxəssisi Gülnarə Bayramova (gulnara.bayramova@eeas.europa.eu)